*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 294-302*
https://doi.org/10.62837/2024.6.294

**ABBASOVA AYTƏMİZ ABBAS QIZI**
**Azərbaycan Dillər Universiteti**
**Ünvan: Rəşid Behbudov küç. 134**
**aytemiz.abbasova@mail.ru**

# AİLƏ SÖHBƏTLƏRİNDƏ NƏZAKƏTSİZLİYİN TƏHLİLİ

## XÜLASƏ

Məqalədə ailə söhbətlərinin təhlili, söhbət zamanı ailə üzvləri arasında narazılıqların yaranması nəticəsində ədəbsizliyin baş verməsi, həmsöhbətlər arasında nəzakətsizliyin yaranma səbəbləri, eləcə də, söhbət zamanı ailə üzvlərinin nəzakətsizliyə meyl etmə səbəbləri araşdırılır. İstifadə edilən sözlərin nəzakətsizliyi ifadə etməsinə baxmayaraq söhbət iştirakçıları arasında incikliyə səbəb olmur. Bu səthi nəzakətsizlik (mock impoliteness) adlanır və insanlar arasında yaxın (dostluq) münasibətə əsaslanır. Nəzakətsizliyin bu forması ailə söhbətlərində tez-tez istifadə olunur və ailə üzvləri tərəfindən istifadə edilməsi situasiyanın daha da gərginləşməsinə səbəb olmur. Söhbət zamanı vəziyyəti gərginləşdirən nəzakətsizlik forması anadangəlmə nəzakətsizlik (inherent impoliteness) hesab olunur. Burada xoşagəlməz ifadələr təhqir kimi qəbul edilir, həmsöhbətlər arasında inciklik yaradır və söhbətin daha da gərgin olmasına zəmin yaradır. Bu daha çox söhbət iştirakçıları gözlənti qurarkən baş verir. Nəzakətsizliyin bu forması söhbət iştirakçıları arasında münasibətləri gərginləşdirməklə onların qəbul edilməyən verbal və qeyri-verbal ifadələrdən istifadə etməsinə səbəb olur və bu hal nəzakətsizlikdən kobudluğa keçir. Ailə söhbətlərində nəzakətsiz halların daha çox başvermə səbəbi həmsöhbətlərin birlikdə (bir evdə) yaşaması və nəticədə günün müəyyən hissəsini birlikdə keçirməli olmaları, söhbət zamanı ailə üzvlərinin problemə fərqli münasibət göstərməsi və bir-biri ilə razılığa gəlməməsidir. Məqalədə söhbət zamanı ailə üzvlərinin sima hədələmə aktından və sima qoruma aktlarından istifadə məqamları tədqiq olunur. Sima hədələmə aktı vəziyyəti gərgin etdiyi halda sima qoruma aktı narazılığın azalmasına səbəb olur. Sima hədələmə aktı və sima qoruma aktından istifadə edilməsi şəxsin ailədəki statusunun göstəricisidir. Nəticədə, hökmlü, özünü ailədə hamıdan üstün hesab edən şəxslərin söhbət zamanı nəzakətsizliyə yol verməsi məqalədə tədqiq edilir. Eyni zamanda ailə danışıqlarında nəzakətsizliyin aradan qaldırılması üsulları göstərilir.

**Açar sözlər:** nəzakətsizlik, səthi nəzakətsizlik, anadangəlmə nəzakətsizlik, sima hədələmə aktı, sima qoruma aktı, ailə müzakirəsi, söhbət təhlili

**Giriş**

Nəzakətsizlik linqvo-praqmatik kateqoriya kimi nəzəri dilçilikdə tədqiq edilməsinə ehtiyac duyulan mühüm məsələdir. Nəzakətsizlik nəzəri baxımdan tədqiq edilsə də, onun müxtəlif söhbət formalarında təzahürü çox az təhlil edilmişdir. Söhbət zamanı işlədilən linqvistik və ekstra-linqvistik vasitələrin nəzakətsiz hesab edilməsi həmsöhbətlərin şəxsi münasibətlərindən asılıdır. “Sima” termini ünsiyyət

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 294-302

zamanı müsbət sosial dəyər kimi təsvir edilə bilər. Müsbət sosial dəyər dedikdə digərlərinin bir şəxs üçün güman etdiyini onun özü üçün effektiv şəkildə iddia etməsidir (7, 5). P. Braun və S.Levinson simanı iki formada təsnif edir. Simanı təhdid edən hərəkət nitq aktıdır və bu dinləyicinin müsbət və ya mənfi simasını zədələyə bilər (4, 68) Simanı təhdid edən hərəkət sima hədələmə aktı hesab olunur. Mənfi sima ünsiyyət zamanı danışanın öz istəklərinin həmsöhbətləri tərəfindən maneəsiz qəbul edilməsidir. Müsbət sima danışanın istəyi söhbət iştirakçıları üçün arzuolunan olmasıdır (4, 68). Qalpeper sima hədələmə aktını nəzakətsizlik hesab edir (5, 335).

Nəzakətsizliyin hər iki növü-səthi nəzakətsizlik və anadangəlmə nəzakətsizlik-insanların qarşılaşdığı danışıqlarda xüsusilə ailə söhbətlərində tez-tez baş verir. Ailə danışıqlarında tez-tez baş vermə səbəbi insanın həyatının bir hissəsi onun ailə və yaxınlarından ibarət olması və onlarla vaxt keçirməli olmasıdır. Ailə söhbətlərində nəzakətsiz məqamları tədqiq etmək üçün ailə məsələlərinin müzakirəsi zamanı yaranan situasiyaları təhlil etmək məqsədəuyğundur. Neqativ dəyərləndirilən, situasiyaya əsaslanan davranışlar nəzakətsizlik hesab olunur. Belə davranışlar ən azı bir iştirakçının emosional danışığının və davranışının nəticəsi olaraq inciklik yaranmasına səbəb olur (6, 254). Ailədə xoşagəlməz situasiyaları təhlil edərkən, belə vəziyyətlərin aradan qaldırılması üslullarının təsnifi də diqqəti cəlb edən məsələdir. Söhbətlərdə nəzakətsizliyi aradan qalxmasını təmin edən məsələlərin tədqiqi də məqsədəuyğundur.

**Söhbət zamanı nəzakətsiz ifadələrin işlədilməsi**

Ailələrdə nəzakəti göstərən davranış və ifadələr fərqli istifadə olunur. Nəzakəti, mədəniyyəti göstərən verbal və qeyri-verbal vasitələrdən istifadəsinə görə bir-birindən fərqlənir, belə ki, bəzi ailələrdə qapalı məkanda (otaqda) papağı çıxartmamaq nəzakətsizlikdir. Bir çox ailələrdə ağzı dolu halda yəni yemək yeyə-yeyə danışması nəzakətsizlik hesab edilir. Yeməyə gedərkən kişilərin xanımların birinci stol arxasında oturmasına izin verməsi, otağa daxil olarkən qapını xanım üçün açıq saxlamaq, süfrədə nəsə xahiş etdikdə, (məsələn: *"Zəhmət olmasa duzu verərsən"*) nəzakətli sözlərdən istifadə edilməsi qəbul edilən qaydalardır. Əgər belə qaydalar pozularsa, onda nəzakətsizlik baş verir (2, 20).

Fikrimizcə, ailələrdə nəzakət qaydalarının pozulması ailə üzvləri tərəfindən nəzakətsizlik kimi qəbul edilməyə bilər. Əgər nəzakətsizlik kimi qəbul edilərsə bu daha çox səthi nəzakətsizlik kimi başa düşülür. Bəzən, anadangəlmə nəzakətsizlik kimi qəbul edilir və bu məqam ailə üzvləri arasında inciklik yaradır.

Məsələn: "*August: Osage County*" filmində belə bir söhbət ailə üzvləri arasında olur və bu söhbətdə nəzakətsizlik ifadə olunur. Həmin məqamı təhlil edək: Violet və onun 2 gənc qızı İvi və Barbara süfrə arxasında əyləşirlər. İvi Barbaraya xərçəngdən əziyyət çəkən anası Violetaya qayğı göstərməyi dayandırmağı və öz şəxsi həyatına sevgi ilə yaşamağı bildirir. Barbara isə onun bu fikrinə istehza edir. Bu situasiyada ailə üzvələri arasında olan dialoqa nəzər yetirək:

1. *Barbara: (xidmətçi Cohannaya zəng edərək) Zəhmət olmasa, anama nahar gətirin.*
2. *Violet: Mən ac deyiləm.*
3. *Barbara: Sən bu gün də, dünən də, heç nə yeməmisən.*
4. *Violet: (ucadan) Mən ac deyiləm.*
5. *Barbara (inadla) Sən yeməyini yeyəcəksən! Hər kəs mənim dediyimi etsin.*
6. ..............
7. *Barbara: Ye*
8. *Violet: Yox*
9. *Barbara: Bunu ye, ana!? Ye bunu.*
10. *Violet: Yox.*
11. *Barbara: Lənətə gələsən səni, ye bunu!*
12. *(İvi təlaşlı görünürdü)*
13. *Violet: Cəhənnəm ol.*
14. *Barbara: (acıqlı halda) Ye bu lənətə gəlmiş balığı.*
15. *İvi: Ana, sənə deyəcəyim sözüm var.*
16. *Barbara: (İviyə baxaraq) Yox deməyəcəksən.*
17. *İvi: Barbara ...*
18. *Barbara: (uca səslə) Yoox... Lənətə gələsən səni ağzını yum*.( August:Osage County, American tragicomedy film directed by John Wells, 2013)

Bu ailə söhbətində Barbaranın anası və bacısına ünvanladığı sözlər nəzakətsizliyin müxtəlif dərəcələrini göstərir. Söhbətin başlanğıcından görünür ki, Barbara özünü bacı və anasından status baxımından üstün hesab edir. Xüsusi ilə 5-ci və 6-cı sırada özünün bacı və anasından daha yuxarı, hökmlü kimi göstərməsi əks olunur. Söhbətin təhlilindən görürük ki, Barbara bir neçə dəfə nəzakətsiz ifadələrdən istifadə edir.11, 14, 18-ci sıralarda isə aşağılayıcı sözlərdən istifadə etməsi nəzakətsizliyin yaranmasına səbəb olur. Düşünürük ki, Barbaranın anasına qarşı işlətdiyi ifadələr həqiqi, yəni birbaşa nəzakətsizlyi (inherent impoliteness) ifadə edir. Anasının 13-cü sırada işlətdiyi ifadədən görürük ki, Barbaranın dediyi ifadələr anasında inciklik, qəzəb yaradır. Fikrimizcə, ünvanlanan sözlər qarşı tərəfdə inciklik yaradarsa onda həmin ünvanlanmış sözlər həqiqi nəzakətsizliyi bildirir. Qeyd edək ki, Barbaranın bacısına qarşı istifadə etdiyi verbal və qeyri-verbal vasitələr səthi nəzakətsizliyi (mock impoliteness) ifadə edir, çünki bacısı İvi Barbaranın ünvanladığı ifadələrə eyni dərəcədə Barbara ilə eyni tərzdə cavab verməməsi onlar arasında vəziyyətin daha da gərginləşməsinə səbəb olur. Düşünürük ki, Barbaranın bacısı İviyə yönləndirdiyi ifadələr İvidə inciklik və aqressiya yaratmır. Nəticədə, həmsöhbətlər arasında vəziyyət gərginləşmir.

**Ailədə nəzakətsiz situasiyaların yaranma səbəbləri**

Bir ailəyə məxsus olmaq özünü dəyərləndirə biləcəyin və tam sərbəst hiss edə biləcəyin bir yer olduğunu ifadə edir. Uşaqların özünü tam sərbəst hiss etməsi dedikdə məhdudsuz hisslərə malik olmaq yəni ağlamaq, mübahisə etmək, əhval ruhiyyədən düşmək, ozünü xəyalpərəst kimi aparmaq və s. başa düşülür. Eyni

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 294-302*
zamanda qışqırmaq, verdiyi sözə əməl etməmək, qapını çırpmaq kimi fərqli davranışı edə biləcəyin bir yerdir. Belə halları kobudluq deyil, uşaqların böyümə dövrünə məxsus xüsusiyyətlər, davranışlar adlandırırıq. Yalnız ailə kontekstində kobudluq kimi dəyərləndirilməyən belə davranış formaları ilə bağlı Amerkalı tədqiqatçı Aleks J. Pakerin təqdim etdiyi siyahını ümumiləşdirərək bildiririk ki, uşaqlarda daha çox belə davranış forması yeniyetməlik dövründə baş verir. Məsələn valideynlərinə verdikləri sözü yerinə yetirməmələri, qardaş-bacıları ilə səbəbsiz mübahisə etmələri, evdə səliqəsizlik yaratmaqları, valideynlərinə cavab qaytarmaları, nəzakətsiz danışmaq yəni "*çox sağ olun, buyurun*" kimi ifadələr adətən telefonla danışarkən "*salam, sağ ol*", kimi ifadələri işlətməmək, nəzakətsiz davranmaq, yəni valideynləri ilə söhbət zamanı, yaxud yemək vaxtı telefonla oynamaq, süfrə qaydalarına riayət etməmək və s. kimi halları müşahidə etmək olar. Bu məsələ ilə bağlı Aleks J. Paker (Packer) maraqlı bir məqama toxunur. İnsanlar ona çox qayğı göstərənə niyə kobudluq edir? Belə kobudluq iş yoldaşına, yaxud dosta edilsə onun cavabı tam əksinə olar. Ancaq ailə kontekstində bu belə (kobudluq kimi) dəyərləndirilmir. Tədqiqatçı bunu sosial davranışı ilə əlaqələndirir. Bu o deməkdir ki, iki formada davranış var: biri göstəriş üçün qeyri-real "səni" ifadə edir, digəri isə ailə üçün yəni real "səni" olduğun kimi ifadə edir.

Qeyd edək ki, qeyri-real "sən" dedikdə ailədən başqa digər icmalarda tələb olunan nəzakət qaydalarına riayət etmək başa düşülür. Ancaq belə qaydalara bilərəkdən, yaxud bilməyərəkdən riayət edilməməsi ətrafdakılar tərəfindən nəzakətsiz yaxud kobudluq kimi dəyərləndirilir. İkinci davranış forması insanı olduğu kimi əks etdirməsinin səbəbi fikrimizcə insanın yalnız ailə kontekstində məhdudiyyətsiz zaman və məkana sahib olması, ailə üzvlərini sevgi və qayğısıdır. Eyni zamanda insanın sərbəst olduğu bir yerdə özünü reallıqda olduğu kimi əks etdirməsinə zəmin yaradır.

**Ailədə xoşagəlməz vəziyyətlərin aradan qaldırılma üsulları**

Ailədə mədəni bir mühitin yaradılması üçün ailə üzvlərinin yerinə yetirəcəyi bir sıra qaydalar var. Aleks Pekar bu qaydaları aşağıdakı kimi təsnif edir:

Ailə üzvləri ilə haləhval tutmaq: Ailədə hal-əhval soruşmaq bir-birinin qayğısına qalmaq mənasını bildirir. Belə hal-əhvalın edilmsi qeyri-uyğun vaxtda deyil, yəni ailə üzvləri çox məşğuldursa, münasib bir vaxtda, məsələn, səhər yuxudan durarkən "sabahın xeyir", axşam yatarkən "gecən xeyrə" kimi ifadələrin işlədilməsi məqsədəuyğundur.

Ailədə əhval-ruhiyəyə diqqət etmək: Hər bir insanın özünü qəmgin yaxud şən hiss etdiyi anlar olur. Belə insanlar söhbət etdikləri zaman onunla söhbət etmək, xoşagəlməz vəziyyət yaranarsa, müəyyən müddət onu sakit, tək qoymaq məsləhətdir. Belə anlar ailə üzvləri arasında da olur və ailədə bir şəxs özünü qəmgin hiss edən digər üzvlər ona diqqətli olması önəmlidir çünki, qəmgin olan şəxsin əhvalı yaxşılaşanda o, həmin anı ətrafdakılarının ona səmimi mehribançılığnı dəyərləndirir.

Uyğun zamanı və vaxtı gözləmək: Bu o deməkdir ki, ailədə uğurlu söhbət və uyğun davranış həmin ailənin vəziyyəti ilə şərtlənir. Məsələn, hər hansı bir istəyinin

valideyn tərəfindən qəbul edilməsi üçün valideyinin əhvalının xoş olduğu bir vaxtda deyilməsi məqsədəuyğundur, çünki həmin istəyə razılıq şansı yüksək olur.

Ailə üzvləri ilə söhbət etmək: Valideyn uşaq söhbəti çox önəmlidir. Uşaqlar dərk etməlidirlər ki,valideyn onları dünyaya gətirir, onlara qayğı göstərir, zamanını onlara həsr edir, onların böyüməsinə əlindən gələni edir. Buna görə də valideynin övladlarının həyatında baş verənləri bilmək haqqı var. Bu haqqı anlayan uşaqlar nəzakətli münasibət göstərərək sirrlərini, onlara aid olan məlumatı öncə valideynləri ilə bölüşürlər. Nəticədə, valideyn uşaq arasında sevgi dolu, dəstəkləyici bir münasibət yaranır.

Fikrimizcə, uşağın söylədiyi gizli məlumat onun səhv işlər gördüyünü də ifadə edə bilər. Belə söhbətlərin sonu valideyinin təmkinsiz, səbirsiz olması ilə uşağa qarşı nəzakətsizliklə (uşağa qışqırmaqla), kobudluqla da (uşağı döyməklə), nəticələnə bilər. Belə olduqda valideyn səbirli olmalı belə səhvlərin təkrarlanmaması üçün övladı ilə söhbətlər aparması yaxşı olardı.

Dostları ilə də sirrlərini deyil, səmimi söhbətlərini davam etdirmələri məqsədəuyğundur. Belə situasyalarda iki istiqamətdə-təhsili və ailə, dostları yəni onların işi, dostları ilə necə tanış olduğunu, valideynlərinin bir-birini necə tanıması ilə bağlı söhbət aparmaq olar. Nəticədə həmin dostun maraq və hisslərini öyrənmək olar.

Qeyd edək ki, çox uşaqlar valideynləri ilə sirrlərini bölüşmək istəmir, əvəzində belə söhbətləri dostları ilə bölüşürlər. Belə uşaqlar valideyn diqqətini dərk etmədikləri üçün belə edirlər. Zənnimizcə, belə vəziyyətlərdə valideynlər övladlarına başqalarının təmmanasız olaraq göstərə bilməyəcəyi diqqətin məhz onlar (valideynlər) tərəfindən uşaqlarına verildiyini anlatmaqdır. Digər tərəfdən uşaqların sirrlərini dostları ilə bölüşməsi gələcəkdə onlar üçün yaxşı nəticələnməyə bilər. Məsələn, dostlar arasında münasibətlərin gərginləşdiyi yaxud zəiflədiyi bir dönəmdə vaxtı ilə bölüşdükləri gizli məlumatların (sirrlərin) digər adamlara ötürməsi olur.

Problem yaranmazdan öncə hadisələr haqqında müzakirə aparmaq. Ailə həyatında baş verən kiçik qıcıqlanmaların qarşısını öncədən düşünmə ilə anlayıb düşünmək olar. Hər bir ailə üzvü problem yaranması güman edilən bir hadisəni öncədən məsləhətləşməklə ailədə mədəni mühitin yaranmasına kömək edər. Belə bir deyim də var: Məsləhətləşmək işin uğurlu və mübahisəsiz yerinə yetirilməsinə kömək edir. Ailədə müzakirə aparmadan işin yerinə yetirilməsi isə nəzakətsizlik və kobudluğun yaranmasına şərait yaradan gərgin situasyaların olmasına səbəb ola bilər. Öncədən müzakirənin aparılması fikri ilə razılaşaraq qeyd edə bilərik ki, dilimizdə də bu barədə belə bir deyim var. “Məsləhətli don gen olar”.

Övladların valideynlərinə harada olmaları haqqında məlumat vermələri: Ailədə nəzakətsizliyi, kobudluğu əks etdirən gərgin situasyaların yaranmasına səbəb olan amillərdən biri də uşaqların valideynlərinə olduqları yer haqqında məlumatı verməmələridir. Fikrimizcə, belə bir xüsusiyyətin uşaqlarada yaranmasına belə məqamlara diqqətsiz yanaşmaları, yaxud valideynlər arasında bu haqda (bir-birilərinə harada olduqları haqda məlumat verməmək) mübahisələrin yaşadığı bir mühitdə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 294-302*
böyümələri səbəb ola bilər. Deməli, bu nəinki övlad-valideyn, eləcə də, valideynlər arasında yaşanan və nəzakətsizliyə, kobudluğa zəmin yaradan bir problemdir. Belə gərginliyin qarşısını almaq üçün ailədə hər kəs bu haqda bir-birinə, mesaj göndərməli, ya da zəng etməlidir.

Evdə səliqəsizliyin olması: Səliqəsizlik ailədə narazılıq yaradan xüsusiyyələrdən biridir. Belə mübahisələr adətən valideyn-uşaq arasında, bəzən isə valideynlər arasında olur. (1, 116-124) Fikrimizcə, belə situasyaların qarşısını almaq üçün ailədə hər kəsin bir qaydaya riayət etməsi məqsədəuyğundur: hər bir üzv (körpələr, fiziki bacarığı məhdud olanlar istisna olmaqla) əvvəl özünü, sonra ailədə ona aid olan işi yerinə yetirməsi vacibdir.

Fikrimizcə, belə qaydaların təhlili, dəyərləndirilməsi ailə üzvlərində, xüsusi ilə valideynlərdə çətinlik yaradır. Bizcə, bunun səbəbi ailənin təhsil səviyyəsi və dünyagörüşü ilə bağlıdır. Belə dəyərləri bilməyən ailələrdə gərgin situasyalar daha çox baş verir.

Ailədə baş vermə ehtimalı yüksək olan narazılıqların qarşısını alan vasitələrdən biri də ailə müzakirələrinin təşkilidir. Qeyd edək ki, bəzən belə müzakirələrin özü mübahisəyə səbəb olur. Ancaq sonu mübahisə ilə qurtaran müzakirə ardıcıl olaraq davamlı ola bilmir. Nəticədə, ailə üzvləri özlərinə məxsus məsələləri və problemləri yaxınları ilə bölüşmür. Ailə söhbətlərinin ardıcıl davamlı olması iclasda müzakirə edilən problemə yaxud bir təklifə hörmətlə yanaşılması, uyğun vaxtın və məkanın seçilməsi, pozitiv əhval-ruhiyyənin saxlanması (yəni digrlərini dinləmək, günahlandırmaqdan daha çox məsələnin həllinə diqqəti yönəltmək, fikirlərə lağyana yanaşmamaq, söhbətin xoş bir anla-filimə baxmaqla xoşladıqları qəlyanaltını etməklə-sona çatdırmaq), müzakirənin uzun müddətli olmamasına diqqət yetirmək-bu söhbəti aparan tərəfindən yerinə yetirilir (1, 124-125).

Ümumiyyətlə, çox ailələrdə müzakirələr aparılır. Bəzi ailələrdə yuxarıda qeyd olunan qaydalara uyğun müzakirələr aparıldığı halda, bir qisim ailələrdə qaydalar çərçivəsində söhbətlərin aparılmasından məlumatlı olmaması səbəbindən ediləcək danışıqlar mübahisələrlə əvaz olunur. Bu da kobudluq və nəzakətsizliyin yaranmasına zəmin yaradır.

**Nəticə**

Hər bir ailədə müəyyən vaxtlar mübahisələr olur. Belə mübahisələri Aleks Paker iki formada fərqləndirir: Mübahisə zamanı ailə üzvləri bir-birilərini dinləyərək, sevgi və hörmət göstərərək məsələnin həllinə üstünlük verirlər. Belə mübahisələr ədalətli və normal mübahisələr hesab olunur. İkinci formada olan mübahisələrdə isə ailə üzvləri bir-birini dinləmirlər, konflikt zamanı ev əşyalarını sındırırlar, bir-birilərinə fiziki zərbələr endirir, müəyyən adlarla bir-birilərinə müraciət edirlər, bir-birilərini incidən sözlər işlədirlər. Belə situasyalarda nəzakətsizlikdən çox kobudluq hallarına rast gəlinir. Hər iki mübahisənin təhlili zamanı belə nəticəyə gələ bilərik ki, Aleks Pekarın qeyd etdiyi mübahisə formaları ya bütün üzvləri ziyalı olan ailələrdə baş verə bilər, ya da təhsil səviyyəsi aşağı olan, uşaqlıqdan böyüyərkən müəyyən

zərbələr alan və digər problemləri (psixoloji, nevroloji və s.) olan ailə üzvləri arasında baş verə bilər.

Ümimiyyətlə, nəzakətsizlik və kobudluğa zəmin yaradan mübahisələrin bir qismi valideyn övlad münasibətlərini əks etdirdiyi üçün tədqiqatçı Aleks Pekarın irəli sürdüyü prinsipləri ailə üzvlərinin bilməsi mühümdür. Belə olduqda, ailədə baş verəcək xoşagəlməz halların qarşısı alınar və əvəzində hörmət və sevgi yaşanar.

## Ədəbiyyat

1. Alex J.P., How rude!: The Teen Guide to Good Manners, Proper Behavior, and Not Grossing People Out, Free Spirit Pub., 1997, 465 p.
2. Andrea R., The definitive guide to communicating, getting along, and living better with your spouse's relatives, Independently Published, 2021, 90 p.
3. August:Osage County, american tragicomedy film directed by John Wells, 2013.
4. Brown, P., Lewinson, S.C., Politeness: Some Universals in Language Usage, Cambridge University Press, 1987.
5. Culpeper J., Towards an anatomy of impoliteness, Journal of Pragmatics 25, 1996, 349-367.
6. Culpeper J., Impoliteness-Using Language to Cause Offence, Cambridge University Press, 2011.
7. Goffman E., Interaction Ritual, Pantheon: New York, 1967.

## Summary

## ANALYSIS OF IMPOLITENESS IN FAMILY CONVERSATIONS

**Abbasova Aytemiz Abbas**

The article deals with the analysis of family conversations, the occurrence of impoliteness as a result of dissatisfaction between family members during the conversation, the causes of impoliteness among interlocutors, as well as the reasons why family members tend to be impolite during the conversation. Although the words which are used by interlocutors express impoliteness, it does not cause offense between the participants of the conversation. This is called mock impoliteness and it is based on a close (friendship) relationship between people. This form of impoliteness is often used in family conversations, and being used by family members does not make the situation worse. Inherent impoliteness is a form of impoliteness that aggravates the situation during a conversation. Here, unpleasant expressions are perceived as insults, cause resentment between the interlocutors and create a basis for the conversation to become even more tense. This happens mostly when the participants of the conversation have expectations. This form of impoliteness leads to the use of inappropriate verbal and non-verbal expressions by straining the relationship between the participants of the conversation, and this situation ensures the transition from impoliteness to rudeness. The reason why

impolite situations occur more often in family conversations is that the interlocutors live together (in the same house) and as a result have to spend a certain part of the day together, family members have different attitudes to the problem during the conversation and they do not agree with each other.

The article examines the use of face-threatening acts and face-saving acts by family members during conversation. The act of face-threatening causes tension, while face-saving leads to a decrease in dissatisfaction. The act of face-threatening and the use of face-saving is an indicator of a person's status in the family. As a result, the article examines the impoliteness of the domineering people who consider themselves superior to everyone else in the family, and the methods of eliminating impoliteness in family conversations are classified in the article.

***Key words:*** *impoliteness, mock impoliteness, inherent impoliteness, face-threating act, face-saving act, family discourse, conversation analysis.*

**Резюме**

**АНАЛИЗ НЕВЕЖЛИВОСТИ В СЕМЕЙНЫХ РАЗГОВОРАХ**

**Аббасова Айтемиз Аббас**

В статье рассматривается анализ семейных разговоров, возникновение невежливости как следствие недовольства между членами семьи во время разговора, причины невежливости среди собеседников, а также причины, по которым члены семьи склонны вести себя невежливо во время разговора. Иногда слова, которые употребляют собеседники, выражают невежливость, но не вызывают обид между участниками разговора. Это называется ложной невежливостью и в ее основе лежат близкие (дружеские) отношения между людьми. Эта форма невежливости часто используется в семейных разговорах, и ее использование членами семьи не ухудшает отношения. Подлинная невежливость – это форма невежливости, усугубляющая ситуацию во время разговора. Здесь неприятные выражения воспринимаются как оскорбления, вызывают обиду между собеседниками и создают почву для того, чтобы разговор стал еще более напряженным. Чаще всего это происходит, когда у участников разговора есть ожидания. Эта форма невежливости приводит к использованию неуместных вербальных и невербальных выражений, обостряя отношения между участниками разговора, что обеспечивает переход от невежливости к грубости. Причина, по которой в семейных разговорах чаще всего возникают невежливые ситуации, заключается в том, что собеседники проживают вместе (в одном доме) и в результате им приходится проводить вместе определенную часть дня, члены семьи в ходе разговора по-разному относятся к проблеме и они не соглащаются друг с другом.

Далее в статье рассматривается использование членами семьи в разговоре действий, угрожающих лицу, и действий по спасению лица. Акт угрозы лицу вызывает напряжение, тогда как сохранение лица приводит к уменьшению

недовольства. Угроза лицу и использование средств сохранения лица являются показателем статуса человека в семье. В завершении, в статье изучается невежливость властных людей, считающих себя выше всех остальных в семье, а также классифицируются методы устранения невежливости в семейных беседах.

**Ключевые слова:** *невежливость, ложная невежливость, подлинная невежливость, угроза репутации, акт сохранения лица, семейный дискурс, анализ разговора.*

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: f.e.d., prof M.Y. Qazıyeva.**
**tərəfindən çapa tövsiyə olunmuşdur**